www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-20 (1759) 30 noyabr 2022-ci il




## Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə tədbir keçirilib

**Prezident İlham Əliyev: Biz müzəffər xalqıq, qalib dövlətik və bu, əbədi olacaq!**

səh. 2

## 2-ci Türkiyə-Azərbaycan HPB Cərrahiyyəsi konfransı keçirilib

səh. 4

## Xarici tələbələrimiz elmi tədqiqat işlərinə cəlb olunur

səh. 4

## İcbari tibbi sığorta zərfinə 2550 xidmət daxildir

səh. 5



## İş prosesi mütəmadi davam edən sahə

İnzibati və təsərrüfat işləri üzrə prorektor Tağı Əhmədov Böyük Elmi Şurada hesabat məruzəsi ilə çıxış edib

səh. 3

## ATU Zəfər Günü turnirinin qalibi olub

*Ali təhsil müəssisələri arasında voleybol turniri keçirilib*

səh. 5

## Almaniyada çalışan məzunlarımız doğma universiteti unutmur

*ATU rəhbərliyi ilə keçirilən görüşdə əməkdaşlıq imkanları müzakirə olunub*

səh. 4



## Şərəfli peşənin layiqli davamçıları

Prezident təqaüdçülərimiz uzun və ağır yolun sonundakı uğura inanırlar

səh. 6

# Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə tədbir keçirilib

## Prezident İlham Əliyev: Biz müzəffər xalqıq, qalib dövlətik və bu, əbədi olacaq!




**Noyabrın 21-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi münasibətilə tədbir keçirilib.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tədbirdə çıxış edib.**

**Prezident İlham Əliyevin çıxışı**

**- Hörmətli Yeni Azərbaycan Partiyasının üzvləri.**

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bu gün biz Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümünü qeyd edirik. Bu münasibətlə Yeni Azərbaycan Partiyasının bütün üzvlərini ürəkdən təbrik edirəm.

Partiyamızın yaranması tarixi hadisə idi. O vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı. Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdir, bəzi hallarda xalqımız böyük faciələrlə üzləşmişdir. Belə bir vəziyyətdə Azərbaycanın görkəmli nümayəndələri, vətənpərvər insanlar, ölkənin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında görürdülər və məhz buna görə Ulu Öndərə müraciət ünvanlamışdılar. Bu müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciət əsasında, bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirilmişdir. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı.

Yeni Azərbaycan Partiyası yarananda müxalifət partiyası kimi yaranmışdır və dövlətin ağır problemlərinin, yükünün bir hissəsini öz üzərinə götürmək böyük məsuliyyət tələb edən addım idi. Çünki o vaxt, bir daha demək istəyirəm, ölkədə gedən proseslər çox narahatedici idi və Azərbaycanın görkəmli nümayəndələrinin məhz Heydər Əliyevə müraciət etməsi bu zərurətdən doğurdu. Çünki ölkə artıq idarəolunmaz vəziyyətə düşmüşdü, bir il ərzində dövlətçiliyin əsasları qoyulmamışdı, demokratik inkişaf ləng gedirdi, əslində, geriyə addımlar atılırdı. Biz təkcə senzuranın tətbiq edilməsini yada salsaq, demək kifayətdir ki, o vaxt demokratik mühitdən söhbət gedə bilməzdi. Media azadlığı yox idi, iqtisadiyyat çox ağır vəziyyətdə idi, insanların sosial vəziyyəti gündən-günə ağırlaşırdı, yoxsulluq təxminən 90 faizə çatmışdı, sənaye istehsalı iflic vəziyyətdə idi. Nizami ordu yaradılmamışdı, inflyasiya ikirəqəmlidən üçrəqəmliyə keçirdi. Yəni, budur 1992-ci ilin noyabr ayında ölkəmizdə yaranmış vəziyyət.

Əlbəttə ki, torpaqlarımızın işğal altına düşməsi vəziyyətimizi daha da ağırlaşdırırdı. 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi həm mənəvi cəhətdən, eyni zamanda, hərbi-strateji nöqteyi-nəzərdən böyük faciə idi. Çünki beləliklə, o vaxt "Dağlıq Qarabağ Muxtar Vilayəti" adlandırılan ərazi ilə Ermənistan arasında coğrafi bağlantı təmin edildi. Hər kəs yaxşı görürdü ki, əgər işlər belə davam etsə, Kəlbəcərin də işğalı qaçılmaz olacaqdır. Əfsuslar ki, belə də oldu. Yəni, 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşdü və beləliklə, ərazimizin böyük hissəsi nəzarətimizdən çıxmışdı.

Heydər Əliyevə cəmiyyətdə inam çox yüksək səviyyədə idi. Bu inamın əsas səbəbləri o idi ki, Azərbaycanda işlədiyi dövrdə o həmişə xalqa xidmət edirdi, həmişə xalqın qayğıları ilə yaşayırdı, həmişə xalqla birlikdə idi, bir yerdə idi.

YAP-ın təsis konfransından yeddi ay keçəndən sonra Heydər Əliyev xalqın tələbi ilə Bakıya dəvət edildi, parlamentin sədri seçildi, 11 ay keçəndən sonra - oktyabr ayında isə Azərbaycan Respublikasının Prezidenti seçildi. Beləliklə, tariximizin o qara səhifəsi bağlanmışdır.

Ölkə qarşısında çox ciddi, böyük problemlər var idi. Məhz Heydər Əliyevin cəsarəti, zəkası, təcrübəsi, xalqın ona olan inamı və əlbəttə, Yeni Azərbaycan Partiyasının üzvlərinin fəaliyyəti, ictimai fəalların fəaliyyəti birlikdə bizə imkan verdi ki, bu çətin vəziyyətdən şərəflə çıxaq. Məhz Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizin strateji xəttini müəyyən edən əsas addımlar atılmışdır. İlk növbədə, Konstitusiya qəbul edilmişdir. Təsəvvür edin ki, Heydər Əliyev hakimiyyətə gələnə qədər Azərbaycan artıq müstəqil dövlət idi, amma bizim Konstitusiyamız yox idi.

Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

Yəni, 1993-2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Əsas məsələ odur ki, bu siyasət davam etdirilməli idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu Öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi. Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, Ulu Öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir. Biz iqtisadi islahatları dərinləşdirdik və son 19 ildə bu sahədə görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, 2003-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bu il iqtisadiyyatımız rekord həddə çatacaq. İlin sonuna qədər gözlənilən proqnoz onu deyir ki, iqtisadiyyatımız 130 milyard manata çatacaq. Bu, rekord göstəricidir.

Güclü ordu quruculuğu. Bu da Ulu Öndərin bizə olan vəsiyyəti idi. Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib, cəmi 44 gün ərzində düşməni tarixi torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa edib, xalqımızın qürurunu bərpa edib və bu gün Azərbaycan dövlətinin təhlükəsizliyinin qarantıdır.

Bizim beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmləndi. Bu haqda çox danışmaq olar, sadəcə olaraq, bir neçə məqamı qeyd etmək istəyirəm. Biz MDB məkanında birinci ölkə olduq ki, 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Biz 2019-cu ildə 120 ölkənin yekdil qərarı ilə Qoşulmama Hərəkatına sədr seçildik və uğurlu sədrliyimizə görə bizim sədrlik müddətimiz bir il daha uzadıldı, gələn ilin sonuna qədər biz sədrlik edəcəyik. Biz İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı çərçivəsində, o cümlədən bir çox digər təşkilatlar çərçivəsində uğurlu fəaliyyət göstəririk. Hətta üzv olmadığımız təşkilatlarda da bizim dostlarımız az deyil və son illərin, ayların hadisələri onu bir daha göstərir. Məsələn, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı. Ermənistan bu təşkilata üzv olan ölkələri Azərbaycanla üz-üzə qoymaq istəyirdi. Bu, böyük təxribatdır və böyük cinayətdir.

Ancaq bu təşkilatın digər üzvləri bu təxribata getmədilər. Bəziləri isə öz çıxışlarında Ermənistanı elə günə qoydular ki, Ermənistanda bu günə qədər də bunu yaddan çıxara bilmirlər.

Bu yaxınlarda yenə də üzv olmadığımız, amma Ermənistanın bilmirəm hansı səbəbə görə üzv olduğu Frankofoniya təşkilatı çərçivəsində də Azərbaycana qarşı çirkin bir təxribat planlaşdırılırdı. Bu təxribatın müəllifi Fransa idi və Fransa da Ermənistana indi himayədarlıq edir. Onlar bir-birinə "bacı" deyirlər və mən görürəm, yoldaşlar da bunu xüsusi qeyd etdilər. Mən daha deməsaid ki, "qardaş" da deyə bilərdilər, amma nədənsə bunlar "bacı" deyirlər. Orada hazırlanmış qətnamənin ilkin variantı sırf anti-Azərbaycan tezislər üzərində qurulmuşdur və həqiqətə tam zidd idi. Frankofoniya təşkilatında olan dostlarımızın, - onları biz yaxşı tanıyırıq və onlar da, sözün əsl mənasında, dostlarımızdır, - səyi nəticəsində bütün anti-Azərbaycan tezisləri oradan çıxarıldı. Fransa-Ermənistan tandemi bu imkandan da istifadə edə bilməmişdir. Yəni, bu, onu göstərir ki, bizim beynəlxalq təşkilatlardakı nüfuzumuz və beynəlxalq müstəvidə apardığımız siyasət təqdir edilir. Çünki biz hər bir işə hər zaman məsuliyyətlə yanaşırıq. Bizim sözümüzlə imzamız arasında heç bir fərq yoxdur.

Bu gün Yeni Azərbaycan Partiyasının yubileyini qeyd edərkən hər birimiz, şübhəsiz, hər birimiz yenə də Ulu Öndərin xatirəsinə ehtiramımızı ifadə edirik. Çünki illər keçdikcə və dünya dəyişdikcə hər birimiz çox gözəl bilirik ki, əgər o vaxt Azərbaycan xalqı Heydər Əliyevə müraciət edib onu hakimiyyətə dəvət etməsəydi, ölkəmiz daha böyük fəlakətlə üzləşə bilərdi.

Bu gün bizi qabağa aparan məhz budur - onun xatirəsinə hədsiz hörmət və onun mirasına olan münasibət. Onun mirası da bu gün müstəqil Azərbaycandır.

Heydər Əliyev öz siyasi vəsiyyətində bir şey də demişdir. Artıq bunu dəfələrlə demişəm, Azərbaycan xalqı da bilir ki, başa çatdıra bilmədiyimiz işləri davamçılarımız başa çatdıracaq. Onların arasında yəqin ki, mən belə hesab edirəm, ilk növbədə, Qarabağ probleminin həllini nəzərdə tuturdu. Biz, onun davamçıları bu problemi bütün işlərimizin mərkəzinə qoyduq. Yəni, hər bir addım, hər bir təşəbbüs, hər bir sərmayə, hər bir beynəlxalq təmas bu məqsədi güdürdü ki, bu, bizi müqəddəs hədəfimizə yaxınlaşdırır, yoxsa uzaqlaşdırır?! Biz bu hədəfə doğru gedirdik. Bizim yolumuz çox çəkdi. Ancaq elə gedib, elə nöqtə vurmalı idik ki, bu, birdəfəlik olsun. Biz hər şeyi ölçüb-biçib öz gücümüzü, eyni zamanda, digər amilləri nəzərə alaraq ən düzgün vaxt seçməli idik, ən düzgün vaxt üçün ən yaxşı vəziyyətdə olmalı idik. Xalqımız Ordumuzla tam birləşdi. Ona görə biz hamımız deyirik ki, bu, ümumxalq Qələbəsidir. Çünki xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il həmimizin yaddaşında əbədi qalacaq, o cümlədən mənim.

İndi isə qurub-yaradırıq, Qarabağı, Şərqi Zəngəzuru yenidən qururuq. Həyatımızda və ölkəmizin həyatında tamamilə yeni dövrdür. Bu gün nəinki Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları başını dik tutub. Bizim üzümüz ağdır, alnımız açıqdır. Biz müzəffər xalqıq, qalib dövlətik və bu, əbədi olacaq!



* * *

Çıxışlarla davam edən tədbir Dövlət Himninin səsləndirilməsi ilə başa çatdı.

# İş prosesi mütəmadi davam edən sahə

## İnzibati və təsərrüfat işləri üzrə prorektor Tağı Əhmədov Böyük Elmi Şurada hesabat məruzəsi ilə çıxış edib

**Noyabrın 29-da Azərbaycan Tibb Universiteti Böyük Elmi Şurasının növbəti iclası keçirilib. İclası açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdırıb.**




Sonra ATU-nun İnzibati və təsərrüfat işləri üzrə prorektoru Tağı Əhmədovun 2018-2022-ci illərdə prorektorluğun gördüyü işlərlə bağlı hesabat məruzəsi dinlənilib.

Məruzəçi prorektorluğun tabeliyində olan struktur, bölmələrin və obyektlərin işinin günün tələbləri səviyyəsində koordinasiya edildiyini və onların fəaliyyətinə nəzarət olunduğunu bildirib: "Bizim məqsədimiz müəllim-professor heyətinin və tələbələrin tədris prosesini komfort şəraitdə həyata keçirməkdən ibarətdir. Qeyd etmək istərdim ki, universitetin maddi-texniki ehtiyatlarla fasiləsiz, lazım olan vaxtda təmin edilməsində Təsərrüfat və təchizat şöbəsinin mühüm rolu var. Universitetin bütün strukturlarını, o cümlədən tədris, elmi və inzibati sahələri müasir avadanlıqlarla təmin etmək, təmir-tikinti işlərinin aparılması və sair xidmətlərin göstərilməsi bu şöbənin əsas işlərindəndir. Təsərrüfat və təchizat şöbəsinin bütün fəaliyyəti - təmir-tikinti layihələri, müxtəlif xidmətlər, bütün növ alqı-satqı əməliyyatlarının aparılması üçün tenderlər və kotirovkalar qanunvericiliyə uyğun həyata keçirilir. Bütün görüləcək işlərdə ilk öncə universitetin tələbləri nəzərə alınır. Bunun üçün universitetin bütün strukturlarından və bölmələrdən il ərzində tələb olunan məlumatlar yığılır. Həmin məlumatlar toplanılıb analiz olunur, rektorluq səviyyəsində razılaşdırılır və onların icrasına start verilir".

Görülmüş işlər barədə məlumat verən T.Əhmədov vurğulayıb ki, pandemiya dövründə bir çox layihələri reallaşdırmaq mümkün olmayıb: "Cənab Prezident İlham Əliyevin də dediyi kimi, XXI əsr texnoloji mübarizə əsri sayılır və internet, texnologiyalar tədrisin əsasını təşkil edir. Bu baxımdan hörmətli rektorumuz universitetdə elektron avadanlıqların yaxın illərdə tam yenilənməsi və universitetin yüksək sürətli internetlə təmin edilməsi haqda tapşırıq verib. Bu yenilənmə universitetin bütün strukturlarını əhatə etməlidir. Bu illər ərzində universitetin bütün strukturlarına yeni avadanlıqların alınması üçün 3 böyük tender keçirilmiş, kompyuterlər, notebooklar, printerlər, UPS, proyektorlar və onlar üçün lazim olan aksessuarlar alınmışdır.

Universitetin bütün tədris binaları, yataqxanaları, idman kompleksi və binaların internetlə təchiz olunması nəzərdə tutulub. Bununla əlaqədar inzibati binada, bəzi yataqxana və tədris binalarında fiberoptik kabel çəkilmişdir. Hal-hazırda 5 saylı tədris binasının tam şəkildə yüksək sürətli internetlə təchiz olunması layihəsi hazırlanaraq tenderə çıxarılmışdır.

Bütün görülən işlər tədrisin yaxşılaşdırılması və tələbələrin rahat yaşayışı üçündür. Məqsədimiz yataqxanalarda yaşayış üçün komfortlu şəraitin yaradılmasıdır. Hal-hazırda 1-ci və 2-ci yataqxanalar təmir olunub, 3-cü və 6-cı yataqxanalar üçün proyekt işləri aparılır. Yeni ildə bu yataqxanalarda təmir işlərinə başlanılması nəzərdə tutulub. Həmçinin hal-hazırda tədris binalarının foyelərində tələbələrin diskussiya aparması üçün müasir mebellərlə təchiz olunmuş guşələr yaradılmış, 1 və 2 saylı tədris binaları və İmtahan Mərkəzində tələbələr üçün yeni müasir paltar dolabları quraşdırılmışdır".

Sözünə davam edən məruzəçi deyib ki, tələbələrin qidalanması rektor tərəfindən ciddi nəzarətə götürülüb. Universitet tərəfindən bağlanmış bir illik pilot xidmət müqaviləsinə əsasən, bütün iaşə obyektlərində təmir işləri aparılıb və təqdim olunmuş məhsullar yüksək səviyyədədir: "İstərdim ki, universitetin müəllim-professor heyəti və digər işçiləri bu iaşə obyektlərindən daha çox istifadə etsin və öz təklif və iradlarını bildirsin. Bildiyiniz kimi, ATU-nun idman kompleksi digər universitetlərlə müqayisədə çox unikal bir kompleksdir və çalışırıq ki, bu kompleks müasir tələblərə cavab versin. Bunun üçün də burada vaxtaşırı idman zalları təmir olunur. Bundan başqa, ATU-nun Əsaslı Kitabxanası hazırda müasir standartlara cavab vermədiyindən, hörmətli rektorumuzun təşəbbüsü ilə qəza vəziyyətində olan, vaxtilə qaçqınların yaşadığı 4 saylı yataqxananın yerində yeni kitabxananın tikilməsi aktuallaşıb. Qeyd etmək istərdim ki, həmin binada kitabxana ilə yanaşı, həm də tədbirlərin, konfransların keçirilməsi və simulyasiya mərkəzinin, eləcə də kafenin layihələndirilməsi nəzərdə tutulub".

Prorektor məlumat verib ki, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının preparasiya laboratoriyasında əsaslı təmir işləri aparılıb və müasir avadanlıq, tədris ləvazimatları, mulyajlarla təchiz olunub. Bundan başqa, krimatoriya sobası da əsaslı təmir olunub. Tibbi mikrobiologiya və immunologiya kafedrasında 2 laboratoriya təmir olunub və tibbi avandalıqlarla təchiz edilib. Həmçinin Pataloji fiziologiya, Tibbi mikrobiologiya və immunologiya kafedralarına məxsus 2 vivari əsaslı təmir olunub, 2 vivari isə əlavə olaraq Farmokologiya və Normal fiziologiya kafedralarına təhvil verilib: "2018-2022 illər ərzində universitetdə daimi cari təmir işləri həyata keçirilib. 5 saylı tədris binasının pilləkən qəfəsələrində sıradan çıxmış yer örtükləri gediş-gəlişə təhlükə yaratdığı üçün dəyişdirilərək yenisilə əvəz olunmuş, həmin tədris binasının fasadından yararsız və qopub yerə düşən provertin örtükləri sökülərək yenidən təmir edilmişdir. Bundan əlavə, 2 və 5 saylı tədris binalarında sanitar qovşaqları təmir olunub və yeni avadanlıqlara təchiz edilmişdir. Uzun müddət universitet binalarında istismarda olan elektrik naqillərinin istifadə müddəti bitdiyinə görə onların dəyişdirilməsinə zərurət yarandığından, yarasız naqillər mis naqillərlə əvəz olunmuşdur. Hazırda tədris binalarında və yataqxanalarda elektrik avtomat qoruyucularının istifadə müddəti bitdiyinə görə dəyişdirilir".

Qış mövsümü ilə əlaqədar görülən işlərdən də bəhs edən natiq vurğulayıb ki, mərkəzi qazanxananı fasiləsiz enerji ilə təmin etmək məqsədilə nəzərdə tutulan generator təmir olunub, universitetin kameralaşması üçün əsaslı işlər görülüb və ona aid avadanlıqlar alınıb: "Bundan başqa, təmirə ehtiyacı olan 2 saylı tədris binasının dam örtüyü Təsərrüfat və təchizat şöbəsinin işçiləri tərəfindən təmir edilmiş, İctimai sağlamlıq və səhiyyənin təşkili, Qidalanma və kommunal gigiyena, Əczaçılığın kimyası kafedralarının hər birinin mühazirə zalı təmir olunub istifadəyə verilmişdir. 2 saylı yataqxanada qonaq otaqları təmir olunub və yeni mebellərlə təchiz edilib. 4 və 5 saylı tədris binalarındakı və inzibati binadakı akt zalı, 3 saylı tədris binasındakı mühazirə zalı yeni müasir səsgücləndirici ilə təmin edilib. Mətbuat katibliyinə müasir fotoaparat və çəkiliş kamerası alınıb".



R.Əhmədov qeyd edib ki, idman kompleksi və 5 saylı tədris binasının dam örtükləri yararsız hala düşmüşdü. Bu barədə universitet rəhbərliyinə məlumat verildikdən dərhal sonra müvafiq tədbirlər görülüb və təhlükənin aradan qaldırılıb. Həmçinin inzibati binanın zirzəmisində yaradılan 200 nəfərlik sığınacaq Fövqəladə Hallar Nazirliyinin tələblərinə uyğun olaraq təmir edilib, havalandırma sistemi quraşdırılıb və alternativ elektrik təchizatı ilə təmin olunub. Bütün bunlarla yanaşı, DİM ilə müştərək olaraq 3, 5 və 6 saylı yataqxanaların və Tədris Stomatoloji Klinikanın istilik və isti su təchizatını yaxşılaşdırmaq məqsədilə yeni qazanxana istismara verilib və həmin binalara gedən borular dəyişdirilib.

Qarabağ müharibəsinin universitetimizdən yan keçmədiyini söyləyən T.Əhmədov bildirib ki, Vətən müharibəsində ATU-nun tələbə və gənc həkimləri şəhidlik zirvəsinə ucalıblar. Bunu nəzərə alan rəhbərlik şəhid məzunlarımızın adını uca tutaraq universitet şəhərciyində "Xatirə abidəsi" ucaldıb. Bundan əlavə, rəhbərlik şəhid ailələrini və qazilərimizi daim diqqət mərkəzində saxlayır. 8 Noyabr Zəfər Günündə ATU-nun rəhbər heyəti şəhid ailələri və qazilərimizlə görüşərək onlara maddi və mənəvi dəstək olub.

Məruzə ətrafında çıxış edən kafedra müdirləri Həqiqət Qədirova, Məhbubə Vəliyeva və ETM-in direktoru, professor Qalib Qarayev universitetdə aparılan yenidənqurma və təmir-tikinti işlərindən razı qaldıqlarını bildirib, kafedralara yeni, müasir avadanlıqların alınmasından geniş söhbət açılıb. Məruzəni qənaətbəxş qiymətləndirən natiqlər çıxışlarında bu sahədə əldə olunan nailiyyətlərlə yanaşı, bir sıra problemləri də dilə gətiriblər və onların aradan qaldırılması istiqamətində öz təkliflərini irəli sürüblər.

Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov qeyd edib ki, təsərrüfat hissəsinin gördüyü işlər çoxdur: "Bu sahə elədir ki, orada iş qurtarmır, hər zaman iş var. Ona görə də hər bir əməkdaşımız təsərrüfat hissəsinə daim kömək etməli, tabeliyində olan inventarlardan düzgün istifadə etməli, qoruyub saxlamalıdır. Əgər universitetin daha yaxşı şəraitdə fəaliyyət göstərməsini istəyiriksə, o zaman daxili nizam-intizam qaydalarına riayət etməliyik. Biz daim təsərrüfat şöbəsi ilə birgə mütəmadi olaraq tələbə yataqxanalarına baxış keçiririk. Yataqxanalarımızda 731 nəfər tələbə yaşayır. 234 yerimiz boşdur. O da əsasən 6 saylı yataqxananın hesabınadır ki, 165 nəfər 6 saylı yataqxananın payına düşür. Hər il dərslərin başlaması ilə əlaqədar yataqxanalarda da qışa hazırlıqla əlaqədar kifayət qədər işlər görülür. Bizim bəzi yataqxanalarda hər il istilik problemi yaranırdı. Amma bu problem artıq biryolluq həllini tapıb".

Müzakirələrə yekun vuran rektor bildirib ki, təsərrüfat hissəsi universitetin ən ağır və çətin sahələrindən biridir və burada nə qədər iş görülsə də, bu proses mütəmadi davam etməlidir: "Tibb təhsilində tədris prosesi prioritetlik təşkil etsə də, universitetdə təsərrüfat işlərinin həyata keçirilməsinə də eyni dərəcədə xüsusi diqqət yetirir. Bütün bu tədbirlərin yüksək səviyyədə yerinə yetirilməsinin bünövrəsində maddi-texniki baza, innovativ təchizat, müasir avadanlıqlar durur. Hal-hazırda maddi bazamız bizə imkan verir ki, universiteti lazım olan inventarla təmin edə bilək. Bildiyiniz kimi, vaxtilə 2 saylı yataqxanada yerləşən tələbə poliklinikası qonaq evinə çevrilib və qonaqlar üçün əlverişli şərait yaradılıb. Bundan başqa, qarşıda duran məsələlərdən biri də "Təbib" nəşriyyatının işini gücləndirməkdir. Çünki orada kitab, jurnal və başqa çap nümunələri ilə yanaşı, universitetin "Təbib" qəzetinin də dərc olunması nəzərdə tutulub".

Daxili nizam-intizam qaydalarına və qarşıda duran vəzifələrə də toxunan rektor vurğulayıb ki, müasir dövrdə internetsiz yaşamaq mümkün deyil. Bu məqsədlə kafedralarımız daim yeni nəsil kompüterlərlə təmin edilir: "Lakin bu o demək deyil ki, kimsə işin kompüterini evinə aparsın və yaxud da işinə səhlənkar münasibət bəsləsin. Bu yolverilməzdir. Bu gün hələ də kafedralarda vaxtlı-vaxtında işə gəlməyən əməkdaşlar var. Hazırda universitetdə 200-dən artıq baş laborant var. İndi aparılan səthi araşdırmalardan məlum olur ki, bunların arasında elələri var ki, illərlə bu vəzifəni tutsa da, heç bir elmi iş aparmır. Kafedra müdirləri isə buna göz yumurlar. Bu səbəbdən də universitetin baş laborantlarının peşəkar səviyyəsinin yoxlanılması üçün Böyük Elmi Şurada onların attestasiya məsələsinə baxılmalıdır. Hesab edirəm ki, üç ildən artıq bu vəzifəni tutanlar növbəti ildə qaydalara uyğun olaraq attestasiyadan keçməli olacaqlar".

Sonra Şura üzvləri rektorun Heidelberg Universitetinin Mannheim Cərrahiyyə Klinikasının direktoru, professor Christoph Reissfelderə və həmin universitetin Cərrahiyyə Klinikasının Damar cərrahiyyəsi şöbəsinin müdiri, professor Michael Andreas Keeseyə ATU-nun "Qonaq professoru" (Visiting professor) adının verilməsi təklifini dəstəkləyib.

Bir sıra müxtəlif məsələləri də müzakirə edən Böyük Elmi Şura, Naxçıvan Dövlət Universiteti rezidentlərinin Azərbaycan Tibb Universitetində ödənişsiz əsaslarla rotasiya keçməsinə də münasibət bildirib. Sonda dərslik, dərs vəsaitləri və metodik vəsaitlərin nəşrini təsdiqləyən Böyük Elmi Şura, müsabiqə məsələlərini həll etməklə öz işini başa çatdırıb.

**M.ƏLƏKBƏRLİ**

# Onlarla alimin müəllimi

## Professor Həsən Sultanovun 90 illik yubileyi qeyd olunub




**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında (TCK) əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Həsən Sultanovun 90 illik yubileyinə həsr olunmuş "Koloproktologiyanın aktual problemləri" adlı beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Konfransı giriş sözü ilə açan ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev bildirib ki, görkəmi şəxsiyyətlər, elm və incəsənət xadimlərinin yubileylərinin keçirilməsi ənənəsinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və cənab prezidentimiz tərəfindən davam etdirilir: "Biz də universitetimiz üçün olduqca əhəmiyyətli alimlərimizdən olan professor Həsən Sultanovun yubileyini qeyd edirik. H.Sultanov çox şərəfli ömür yolu keçib. O, Tərtər rayonunda anadan olub, orta məktəbi bitirdikdən sora Tibb İnstitutuna daxil olub. 4-cü kursdan sonra Rusiyanın Samara Dövlət Tibb Universitetinin Hərbi tibb fakültəsində təhsilini davam etdirib. 1955–1957-ci illərdə Murmansk vilayətində hərbi hospitalda hərbi həkim kimi fəaliyyət göstərib. Sonra Azərbaycana qayıdıb, ordinaturanı başa vurub, Tərtər və Bərdə rayonlarında baş həkim kimi çalışıb. 1969-cu ildə elmlər namizədliyi dissertasiyasını müdafiə edib. 1970-ci illərdən sonrakı həyatını Tibb İnstitutuna həsr edib. Assistent, dosent, professor, 1990-2012-ci illərdə isə kafedra müdiri kimi fəaliyyət göstərib. O işlədiyi müddətdə 42 nəfər elmlər namizədi hazırlayıb. Həsən müəllim həm bir cərrah, həm də böyük bir alim kimi sevilib, seçilib. O, sadəliyi, şəxsiyyəti, insanlarla davranışı ilə başqalarından fərqlənirdi. Həmişə hər kəsə yaxşılıq etməyə çalışırdı. Universitetimizin kollektivi Həsən müəllimin əziz xatirəsini daim yaşadacaq. Çünki o, bir məktəb yaradıb, onun qoyduğu yol indi də davam etdirilir".

ATU-nun II cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov çıxış edərək, professor H.Sultanovun həyat və yaradıcılığı haqqında geniş məlumat verib.

Çıxış edənlərdən əməkdar həkim, II Cərrahi xəstəliklər kafedrasının professoru Surxay Hadıyev, əməkdar elm xadimi, III Cərrahi xəstəliklər kafedrasının professoru Məmməd Nəsirov, Ümumi cərrahlıq kafedrasının professoru Məhəmməd Kərimov, Urologiya kafedrasının müdiri, professor Sudeyf İmamverdiyev, Ümumi cərrahiyyə kafedrasının məsləhətçi-professoru Çərkəz Cəfərov mərhumla bağlı xatirələrini səsləndiriblər.

Sonda I Mamalıq-ginekologiya kafedrasının professoru Səadət Sultanova tədbirin təşkilatçıları və iştirakçılarına ailə üzvləri adından təşəkkürünü bildirib: "Beynəlxalq elmi-praktik konfransın keçirilməsinə görə hörmətli rektorumuz, professor Gəray Gəraybəyliyə, Həsən Sultanovun yubileyinə həsr olunmuş kitabda öz ürək sözlərini bildirənlərə, türkiyəli qonaqlarımız daxil olmaqla, bu gün bura onun adına toplaşan hər kəsə təşəkkür edirəm".

**"Alman-Azərbaycan Tibb işçiləri birliyi"nin (Deutsch Aserbaidschanische Mediziner Verband – DAMV) idarə heyətinin üzvü Surəddin İsmayıl ATU-da olub. O, universitetin rektoru, professor Gəray Gəraybəyli və Beynəlxalq əlaqələr üzrə prorektor dosent Orxan İsayevlə görüşlər keçirib.**

# Almaniyada çalışan məzunlarımız doğma universiteti unutmur

## ATU rəhbərliyi ilə keçirilən görüşdə əməkdaşlıq imkanları müzakirə olunub



S.İsmayıl planlaşdırılan və artıq həyata keçirilmiş layihələrlə bağlı məlumat verib, gələcək əməkdaşlığın detalları müzakirə olunub. Nəticədə, yaxın aylarda DAMV ilə ATU arasında memorandumun imzalanmasına dair şifahi razılıq əldə edilib.

Qeyd edək ki, Almaniyada çalışan bir qrup həkim soydaşımız tərəfindən Vətənə dəstək məqsədilə yaradılmış DAMV 2021-ci ilin yanvar ayında Almaniya Federativ Respublikasında rəsmi olaraq qeydiyyatdan keçib. Dərnəyin hədəfləri Azərbaycanı Almaniyada, eləcə də beynəlxalq səviyyədə layiqincə təmsil etmək, iki ölkə arasında səhiyyə sahəsində əməkdaşlığın genişləndirilməsinə töhfə vermək, Azərbaycanda səhiyyə xidmətlərinin inkişafına dəstək üçün müxtəlif qarşılıqlı təlimlərin, elmi müzakirələrin təşkil olunmasıdır.

Bu istiqamətlərdə artıq bir neçə layihə həyata keçirilib. Bu layihələrdən olan "Kitabçı"nın isə ATU-nun məzunları olan, hazırda Almaniyada fəaliyyət göstərən dərnək üzvləri üçün mənəvi tərəfi də var. Layihə ATU-nun Əsaslı kitabxanasının xarici və yerli, xüsusilə almandilli müasir ədəbiyyatlarla - tibbi kitab və jurnallarla zənginləşdirilməsini özündə ehtiva edir və başda Almaniyada rezidenturaya/ixtisasartırmaya hazırlaşanlar olmaqla, bütün tələbə və rezidentlərimizə kömək üçün nəzərdə tutulub. Layihənin həyata keçirilməsi uzunmüddətlidir və gələcəkdə kitabxanada modernləşdirici maddi-texniki işləri də özündə əks etdirir.

Layihə çərçivəsində S.İsmayıl ATU-nun Əsaslı kitabxanasının direktoru Ziyafət Eminova ilə görüşüb. Almandilli müxtəlif fənn və ixtisas kitablarından (cərrahiyyə, daxili xəstəliklər, farmakologiya, müxtəlif ultrasəs müayinələri, hematoonkologiya və s.) ibarət ilk ianə təhvil verilib. Azərbaycan Tibb Universiteti və Dərnək kitabların toplanmasında yaxından iştirak etmiş Almaniyada çalışan həmkarlara öz minnətdarlığını bildirir.

**ATU Tələbə Elmi Cəmiyyətinin şura üzvlərinin iştirakı ilə universitetimizdə təhsil alan xarici tələbələrlə görüş keçirilib. Görüşdə TEC-in elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov geniş məruzə ilə çıxış edib.**



# Xarici tələbələrimiz elmi tədqiqat işlərinə cəlb edilir

## Müşfiq Həsənov: Elmi fəaliyyət onların təhsilində, həkim kimi yetişməsində əhəmiyyətli rol oynayacaq

O, TEC-in bu günkü fəaliyyəti və gələcək inkişaf perspektivlərindən söhbət açaraq bildirib ki, tələbələrin, o cümlədən xarici tələbələrin elmi işlərə cəlb olunması universitet rəhbərliyinin diqqət mərkəzindədir: "Rektor, professor Gəray Gəraybəyli bizim tədbirlərdə çıxışlarında da bu məsələnin vacibliyini vurğulayıb və xarici tələbələrin elmi işlərə cəlb olunmasını onların universitetimizi öz ölkələrində təbliğ etməsi, həmçinin müxtəlif ölkələrin gəncləri ilə əlaqə yaradılması baxımından da yüksək dəyərləndirib. Bu nöqteyi-nəzərdən əcnəbi tələbələrin fəaliyyətindən bəhrələnməyi nəzərdə tutmuşuq. Eyni zamanda, elmi fəaliyyət onların təhsilində, eləcə də həkim kimi yetişməsində əhəmiyyətli rol oynayacaq".

Fakültə TEC-ləri sədrlərinin aktiv iştirak etdiyi müzakirələrdən sonra TEC- in nəzdində xarici tələbələrdən ibarət qrup yaradılıb. Xarici tələbələrin öz içərisindən həmin qrupa rəhbərlər təyin olunub və onlarla fakültə TEC-lərinin sədrləri, yeni şura üzvləri arasında bir logistik mərkəz formalaşdırılıb. Elə oradaca bir neçə xarici tələbəyə elmi işlər təqdim olunub. Onlar TEC-də təmsil olunmaqdan məmnunluqlarını bildirərək, universitetin elmi həyatında aktiv iştirak etmək istədiklərini söyləyiblər.

TEC-in elmi rəhbəri M.Həsənov müzakirələri yekunlaşdıraraq, indiyədək çox az sayda xarici tələbəni elmi tədqiqat işlərinə cəlb edə bildiklərini deyib. Əlavə edib ki, universitetimizdə həm ingilis dili bölməsinin olması, həm də xarici tələbələrin sayının artması onların TEC-də aktiv iştirakına zəmin yaradır.

Qərara alınıb ki, gələcəkdə bu cür tədbirlərə daha çox xarici tələbə cəlb olunsun.

# 2-ci Türkiyə-Azərbaycan HPB Cərrahiyyəsi konfransı keçirilib



**Azərbaycan Tibb Universitetində 2-ci Türkiyə-Azərbaycan HPB Cərrahiyyəsi konfransı keçirilib. ATU və Türk HPB Cərrahiyyəsi Dərnəyinin birgə təşkilatçılığı ilə baş tutan tədbir "Pankreasın neoplastik kistlərinə müasir yanaşma" mövzusuna həsr edilib.**

Tədbirdə açılış nitqi ilə çıxış edən ATU-nun Elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov qardaş ölkələr olan Azərbaycan və Türkiyə arasında hər sahədə olduğu kimi, səhiyyə və təhsil istiqamətində də irimiqyaslı layihələrin icra edildiyini bildirib və bu tədbiri ikitərəfli əlaqələrə bir töhfə kimi qiymətləndirib. Qeyd edib ki, hazırda ATU-nun beynəlxalq əlaqələrində ilk yerdə Türkiyə universitetləri və tibb müəssisələri ilə əməkdaşlığın durması təsadüfi deyil. Türkiyənin 30-dan çox universiteti ilə qarşılıqlı əməkdaşlığa dair memorandum mövcuddur ki, bu işbirliyi çərçivəsində müştərək elmi işlər aparılır, mütəxəssislər və tələbələrin mübadiləsi həyata keçirilir.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov tədbirin mövzusunun müasir tibb üçün böyük əhəmiyyət daşıdığını bildirib. O, hepato-pankreato-biliar cərrahiyyənin ümumi cərrahiyyənin çox mürəkkəb və eyni zamanda sürətlə inkişaf edən sahələrindən biri olduğunu qeyd edib. Tibbi texnologiyalar təkmilləşdikcə, bu sahədə də patologiyaların aşkarlanması artıb, müvafiq olaraq, diaqnostik və müalicə tədbirləri genişlənib. Nazir müavini praktik təcrübə və fikir mübadiləsi aparılması, müzakirələrin təşkili baxımından belə tədbirlərin böyük önəm daşıdığını vurğulayıb.

ATU-nun I Cərrahi xəstəliklər kafedrasının müdiri Nuru Bayramov Azərbaycan və Türkiyə arasındakı hərtərəfli münasibətlərin təhsil sahəsinə də güclü sirayət etdiyini bildirib. Türk HPB Cərrahiyyə Dərnəyi ilə ATU-nun I Cərrahi xəstəliklər kafedrası arasında çox sıx və uzunmüddətli əlaqələrin olduğunu qeyd edən natiq, indiyədək bir çox ortaq layihələrə imza atdıqlarını xatırladıb.

Türk HPB Cərrahiyyə Dərnəyinin rəhbəri Mustafa Kərəm də Azərbaycanda görülən işlərdən danışıb. Ölkəmizdə açılan HPB mərkəzi türkiyəli mütəxəssislər tərəfindən hepato-pankreato-biliar cərrahiyyəsinin əsasları öyrədilən təhsil platformasıdır. Mərkəzin əsas məqsədi ümumi cərrahiyyə üzrə təhsil alan və ya artıq təhsil almış tibb işçilərinin HPB cərrahiyyəsinin fəlsəfəsini qavramasına yardımçı olmaq, bu sahəyə marağı olan cərrahlara kömək etməkdir.

Rəsmi çıxışlardan sonra konfrans öz işini panel sessiyalarla davam etdirib.

# ATU Zəfər Günü turnirinin qalibi olub

## Ali təhsil müəssisələri arasında voleybol turniri keçirilib

**Azərbaycan Könüllü Həkimlər Assosiasiyası (AKHA), "Regional İnkişaf" İctimai Birliyi (RİİB) və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) birgə təşkilatçılığı ilə şəhid ailələrinin üzvləri və qazilər üçün növbəti tibbi aksiya oktyabrın 29-da Lənkəran rayonunda təşkil olunub.**




Tədbirdə Nəsimi RİH başçısı Asif Əsgərov, RİH aparatının məsul əməkdaşları, ATU-nun prorektorları Sabir Əliyev, Zülfüqar Musabəyov, Tağı Əhmədov, rayon Gənclər və İdman İdarəsinin rəisi Şahmar Tağıyev, idman klublarının rəhbərləri və tələbələr iştirak ediblər.

Əvvəlcə qonaqlar Tədris İdman Kompleksində yerləşən Şəhidlər banerinin önünə gül dəstələri qoyaraq onların əziz xatirəsini yad ediblər. Sonra olimpiya himninin sədaları altında komandalar zala daxil olublar. Komandalar yerlərini tutduqdan sonra Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Nəsimi RİH başçısının müavini Zahid Xəlilov qeyd edib ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu cəmi 44 gün ərzində torpaqlarımızı düşmən tapdağından azad etdi. Bu gün fəxrlə deyə bilərik ki, biz qalib ölkənin vətəndaşlarıyıq.

Çıxışlardan sonra yarışlara start verilib. Turnirin nəticələrinə görə, Azərbaycan Tibb Universitetinin komandası I, Azərbaycan Dillər Universitetinin komandası II, Azərbaycan Texniki Universitetinin komandası isə III yerə layiq görülüblər.

Qaliblər kubok, diplom və medallarla təltif ediliblər. Eyni zamanda turnirdə iştirak edən bütün ali təhsil müəssisələrinə turnirdə iştirak etdikləri üçün təşəkkürnamələr təqdim olunub.

Azərbaycan Milli Konservatoriyasının tələbəsi Aydan İlxaszadənin ifa etdiyi mahnılar könülləri oxşayıb, tədbirə xoş çalarlar qatıb.

# Əməkdaşımız ABBOT-un təlimçi həkim statusunu alıb

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının uşaq kardioloqu Elnur İmanov dünya miqyaslı ABBOT təhsil şəbəkəsində proktor həkim statusunu qazanıb. İnvaziv kardiologiya sahəsində flaqman sayılan bu şəbəkənin sertifikatı azərbaycanlı həkimin bütün dünya üzrə təlimçi statusunu təsdiqləyir.**

Vətən müharibəsinin ilk günlərindən "Azərbaycan Ağız və Üz-çənə Cərrahları Cəmiyyəti" yaralanan əsgər və zabitlərimizə ixtisaslaşmış tibbi yardım göstərməyə hazır olduğunu Səhiyyə Nazirliyinə bildirmişdi. 2020-ci il oktyabrın 2-dən etibarən ATU-nun Tədris Cərrahiyyə Klinikasında ilk olaraq Üz-çənə cərrahiyyəsi şöbəsi, daha sonra klinikanın digər şöbələri hərbi əməliyyatlarda yaralanan hərbçilərimizə xidmət göstərməyə başlamışdı. Klinikanın bütün tibb personalı öz bilik, bacarıq və təcrübəsini bu işə sərf edərək 100-dən çox yaralıya yardım göstərmişdi.

Zəfər Gününün 2-ci ildönümündə Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşları və şöbənin orta tibb personalına "Azərbaycan Ordusunun tibb xidmətinə verdiyi töhfələrə görə" Fəxri Fərmanı və xüsusi hazırlanmış "Dəmir yumruq" simvolu təqdim edilib.




# İcbari tibbi sığorta zərfinə 2550 xidmət daxildir

**Noyabrın 18-də Azərbaycan Tibb Universitetində icbari tibbi sığorta haqqında maarifləndirmə mövzusunda təlim keçirilib.**



Tədbiri I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov açaraq adıçəkilən mövzunun aktuallığını diqqətə çatdırıb və bu barədə çıxış etmək üçün sözü İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin baş məsləhətçisi Elvin Abbasova verib.

Öncə təlimin təşkilinə göstərdiyi dəstəyə görə universitet rəhbərliyinə agentlik adından təşəkkürünü bildirən E.Abbasov, ölkəmizdə icbari tibbi sığorta sisteminin 2016-cı ildən Mingəçevir şəhərində və Yevlax rayonunda pilot layihə olaraq fəaliyyətə başladığını, daha sonra Ağdaş rayonunun da pilot layihəyə qoşulduğunu vurğulayıb. Qeyd edib ki, pilot layihədə əldə olunan müsbət nəticələr bu sistemin ölkə üzrə tətbiq edilməsi zərurətini yaradıb: "İcbari tibbi sığorta sistemi hər bir vətəndaşımızın tibbi yardım alma hüququnu təmin edən bir sistemdir. Bundan başqa, BMT tərəfindən təsdiqlənmiş qaçqınlar və məcburi köçkünlər də icbari tibbi sığortadan istifadə edə bilər. Eyni zamanda, ölkəmizdə vətəndaşlığı olmayan şəxslər də icbari tibbi sığortadan istifadə etmək hüququna malikdir".

İcbari tibbi sığorta sisteminin tətbiqində ilkin məqsədin ölkə səhiyyəsində yeni modernləşdirmə mexanizmi yaratmaq olduğunu deyən mütəxəssisin sözlərinə görə, hazırda xidmətlər zərfinə yüzlərlə həyati vacib, dəyəri yüksək əməliyyatlar daxildir: "Əsas məqsədlərdən biri də tibbi xidmətlərə əlçatanlığı artırmaqdır. Yeni keyfiyyət baxımından hələ problemlər olsa da, səhiyyə xidmətlərinə əlçatanlıq baxımından çox irəli getmişik. Ümidvaram ki, gələcəkdə tibbi xidmətin keyfiyyətində də yüksək nailiyyətlər qazanılacaq".

E.Abbasov icbari tibbi sığorta haqqının yığılması qaydalarına da toxunaraq bildirib ki, bu haqq yalnız rəsmi surətdə işləyən əhalidən toplanır: "Bu da hardasa 40 faiz deməkdir, yerdə qalan 60 faiz əhalinin sığorta haqları dövlət büdcəsi hesabına ödənilir. Sığorta haqqı ödəyən də, ödəməyən də eyni xidməti alır. Yəni sığorta sistemi həmrəylik prinsipinə dayanan bir sistemdir".

İcbari tibbi sığorta sistemində xidmətlər zərfini icbari tibbi sığortaya daxil olan bütün müayinə, müalicə və əməliyyatların bir toplusu adlandıran agentliyin nümayəndəsi, bu zərfə 2550 tibbi xidmətin daxil edildiyini, bu xidmətlərin sayının 3000-dən yuxarı qaldırılması haqda dövlətə təkliflər verildiyini deyib.

Həmçinin stasionar xidmət zamanı dərman təminatı, tibbi sərfiyyat və qidalanmanın tam pulsuz olduğunu, ambulator şəraitdə isə dərman təminatının xidmətlər zərfinə daxil edilmədiyini xatırladıb. O, xidmətlər zərfinə daxil olan və daxil olmayan arayışların təsnifatını açıqlamaqla yanaşı, sığorta limitinin olub-olmamasına da aydınlıq gətirib: "Vətəndaş ödədiyi sığorta haqqının məbləğindən asılı olmayaraq, il ərzində heç bir məbləğ limiti qoyulmadan tibbi xidmət ala bilər. Vətəndaşlara tibbi sığorta xidməti TƏBİB-in tabeçiliyinə verilmiş dövlət səhiyyə sisteminə daxil olan 3000-dən artıq tibb müəssisəsində göstərilir. Əgər hansısa tibbi xidmət dövlət müəssisəsində mümkün olmazsa, vətəndaş agentliklə müqaviləsi olan özəl tibb müəssisələrinə yönləndirilir".

Bundan sonra agentliyin Tibbi ekspertiza şöbəsinin məsləhətçisi, ATU-nun məzunu Fatiq Həsənov tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıb.

Tədbirin əvvəlində və sonunda tələbələrin icbari tibbi sığorta haqqında biliklərini müqayisəli şəkildə yoxlamaq məqsədilə sorğu aparılıb.

# İki əcnəbi tələbə ATU-dan xaric edilib, digərlərinə şiddətli töhmət verilib

**Azərbaycan Tibb Universitetinin Rektoryanı Şurasının növbəti iclası keçirilib. Toplantıda universitetin bəzi əcnəbi tələbələrinin davranışı ilə bağlı qərarlar qəbul edilib, onların ikisinin ali məktəbdən xaric olunmasına dair qərar verilib.**

Qeyd edilib ki, ATU-nun 6 əcnəbi tələbəsi universitetdən kənar məkanda digər tələbələrə fiziki zorakılıq və şiddət tətbiq etməklə yanaşı, onları qorxudublar. Zorakılıq aktını videolentə alan tələbələr bu çəkilişi sosial şəbəkələrdə paylaşacaqları ilə digərlərini hədələyiblər. Faktla bağlı Nəsimi rayon polis bölməsində aparılan araşdırma zamanı iki əcnəbi tələbənin - Al Khawaldeh Mohammad Khev Ahmad və Abdullah Mohammaed Sahrinin tələbələrə güc tətbiq edərək, fiziki şiddət nümayiş göstərdiyi təsdiqlənib. ATU-nun Rektoryanı Şurasının üzvlərinin qərarına əsasən, adıçəkilən 2 tələbə universitetdən xaric edilib, hadisədə iştirak digər 4 tələbəyə (Mohamad Eihab Ahmed Aldakach, Al Jivondi MHD Nabil Khalid, Al Ali Aussesami, Hafez Mohammed Ali) isə şəxsi işinə qeyd edilməklə şiddətli töhmət verilib. Şuranın müzakirə etdiyi digər məsələ II Müalicə-profilaktika fakültəsinin 1-ci kurs tələbəsi Orxan Bəhmənlinin davranışı ilə bağlı olub. O.Bəhmənli noyabrın 17-də anatomiya fənni üzrə keçiriləcək aralıq imtahanlarının suallarının cavablarını əldə edərək digər tələbələr arasında yayıb və bununla da imtahanı pozub. Rektoryanı Şuranın qərarına əsasən, O.Bəhmənliyə şəxsi işinə yazılmaqla şiddətli töhmət elan edilib.

# Hərbi-idman yarışlarına start verilib

**Noyabrın 19-da ATU-nun Tədris İdman Kompleksində Nəsimi rayon Gənclər və İdman İdarəsi və "Təbib" İdman Klubunun birgə təşkilatçılığı ilə ilk dəfə pilot layihə olaraq hərbi-idman yarışları keçirilib.**



Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himnimiz səsləndirildikdən sonra yarışa start verilib.

ATU-nun Hərbi tibb fakültəsinin 90 tələbəsinin qatıldığı yarışda iştirakçılar 8 normativ üzrə öz güclərini sınayıblar. Daha sonra hərbi-idman yarışlarının, eyni zamanda Zəfər Günü münasibətilə keçirilmiş badminton (oğlanlar və qızlar), stolüstü tennis (oğlanlar və qızlar), voleybol (oğlanlar və qızlar) və futzal yarışlarının təltifolunma mərasimi baş tutub.

Mərasimdə Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, ATU-nun Hərbi tibb fakültəsinin dekan müavini, polkovnik Məharət Rzayev, Nəsimi rayon Gənclər və İdman İdarəsinin rəisi Şahmar Tağıyev və "Təbib" idman klubunun sədri Qələndər Aslanov iştirak ediblər.

Nəsimi İH başçısı Asif Əsgərov çıxış edərək tələbələrə Zəfər Gününün əhəmiyyətindən, eləcə də dövlətimizin gənclərə və idmançılara göstərdiyi diqqət və qayğıdan danışıb. Qeyd edib ki, hərbi-vətənpərvərlik tərbiyəsi işinin geniş şəkildə təbliğ edilməsi gənclərlə iş sahəsində qarşıda duran başlıca vəzifələrdən biridir.

Sonda qaliblər müvafiq dərəcəli diplom və medallarla təltif olunublar.

# Beynəlxalq əlaqələr şöbəsi təlimdə

**ATU Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları "Dəyər axınının xəritəsi - təşkilatınızın proseslərini və əməliyyatlarını qiymətləndirmək, daha yaxşı nəticələr üçün itkiləri müəyyən etmək və aradan qaldırmaq" mövzusunda seminarda iştirak ediblər.**




Təlim Beynəlxalq Təhsil Menecerləri Assosiasiyası tərəfindən ABŞ-ın Azərbaycandakı səfirliyinin dəstəyi ilə təşkil olunub.

Azərbaycan Tibb Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Müşfiq Orucov və müdir müavini Nigar Ələkbərovanın qatıldığı seminarda ABŞ-ın Merilend Universitetinin Beynəlxalq Tələbələr və Alimlər Ofisinin direktoru Adam Julian əsas məruzəçi kimi çıxış edib.

# Rusiya Uşaq Cərrahlarının VIII Forumunda təmsil olunmuşuq

**Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilov noyabrın 10-12-də Rusiya Uşaq Cərrahları Assosiasiyasının dəvəti ilə bu təşkilatın VIII forumuna qatılıb.**




Hibrid formatda baş tutan tədbirdə assosiasiyasının sədri, professor A.Razumovski, eləcə də professor V.Rozinov və professor D.Morozov giriş nitqi söyləyiblər. Uşaq cərrahiyyəsinin aktual problemlərinə həsr olunmuş forumda "Bunu necə edə bilərəm?" mövzusunda videosessiya, dəyirmi masa, master-klasslar və simpoziumlar keçirilib, bir çox mövzularda məruzələr dinlənilib. Universitetimizin təmsilçisi dr. N.Xəlilov forumun işçi iclaslarında və Rusiya uşaq cərrahlarının hesabat seçkisində iştirak edib.

Rusiya Federasiyasinin bütün bölgələrindən və MDB ölkələrindən nümayəndələrin qatıldığı, gənc alimlərin elmi-tədqiqat işlərinin ənənəvi müsabiqəsi ilə yekunlaşan forum innovativ ideyaların və texnologiyaların geniş təbliğinə, yerli mütəxəssislərin beynəlxalq peşəkar məkana inteqrasiyasına öz töhfəsini verib.

# “Qədim Şuşa” sənədli filmi ATU-da



**Azərbaycan Tibb Universitetində “Xocalı Soyqırımını Tanıtma” İctimai Birliyinin təşəbbüsü və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə “Qədim Şuşa” adlı sənədli film nümayiş etdirilib. Filmdə Şuşanın tarixi, mədəniyyəti, memarlığı, tarixi şəxsiyyətləri ilə bağlı tanınmış alimlərimiz ətraflı məlumat verir, Şuşa uğrunda vuruşan qazilər döyüş yollarından söhbət açırlar.**

Birliyin sədri, layihə rəhbəri Şamil Sabiroğlu öncə rəhbərlik etdiyi təşkilat barədə tədbir iştirakçılarına ətraflı məlumat verib: “Tədbirlərimizi daha çox hərbi hissələrdə, Vətənimizi müdafiə edən əsgərlərimiz arasında keçiririk. Beynəlxalq aləmdə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə “Xocalıya ədalət” kampaniyası ilə birgə fəaliyyətimizi davam etdiririk”.

Sonra Ş.Sabiroğlu filmin çəkilməsinin zəruriliyindən danışıb: “Qədim Şuşa” filmi “Şuşa ili” çərçivəsində hazırlanıb. Filmdə Şuşanın tarixindən və Qarabağın Azərbaycana məxsus olmasından söhbət gedir. Filmin xarici dillərə tərcüməsi də nəzərdə tutulub”.

ATU-nun professoru Mübariz Allahverdiyev çıxışında filmin əhəmiyyətindən danışıb. O, Şuşada orta məktəbdə oxuduğu illəri kövrək xatirələrlə yada salıb. Ermənilərin vandallığından, tariximizi saxtalaşdıraraq özününküləşdirməyə cəhd etmələrindən, Şuşanı və Qarabağı talan etmələrindən geniş söhbət açıb.

Milli Qəhrəman Ədalət Məhərrəmov da çıxışında filmi təqdir edib. O, keçdiyi döyüş yolundan danışaraq, müharibənin hələ bitmədiyini deyib. Bunu ermənilərin hər an Qarabağda təxribat törədəcəyi ilə əlaqələndirib.

“Azərbaycan Bayrağı” ordenli Məhəd Tağıyev də filmin əhəmiyyətini vurğulayaraq, onun ictimaiyyət arasında geniş nümayişini arzu edib.

# “Təhlükəsiz həyat” mövzusunda maarifləndirici tədbir keçirilib

**Noyabrın 24-də “Aydınlar Ocağı” humanitar ictimai birliyi Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə ATU-da “Təhlükəsiz həyat” mövzusunda tədbir keçirib. Tədbiri universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Qoşqar İsmayılov açıb.**



Qonaqları və tələbələri universitetin rəhbərliyi, rektor, professor Gəray Gəraybəylinin adından salamlayan THİK-in sədri, tədbirin gedişində mina təhlükəsindən qorunmaq yolları haqqında ətraflı məlumat veriləcəyini diqqətə çatdırıb. O, işğaldan azad edilmiş ərazilərdə mina təhlükəsinin hələ də qaldığını, buna görə də maarifləndirici tədbirin əhəmiyyətini vurğulayıb.

Mina təhlükəsi barədə maarifləndirici videoçarxın nümayişindən sonra “Aydınlar Ocağı”nın sədri Vüqar Qədirov çıxış edərək ilk növbədə tədbirin keçirilməsi üçün yaradılan şəraitə görə universitet rəhbərliyinə təşəkkürünü bildirib. O, diqqəti Tibb Universitetinin təsadüfən seçilmədiyinə yönəldərək qeyd edib ki, gələcəyin həkimlərinin hər zaman mina qurbanı olan insanlarla rastlaşmaq ehtimalı var: “Eləcə də gələcəkdə öz təhlükəsizliyinizi qorumaqla bərabər, ətrafınızda olan gəncləri, cəmiyyəti maarifləndirə də bilərsiniz. Bu baxımdan sizin üzərinizə də məsuliyyət düşür”.

İctimai birliyin rəhbəri müharibədən sonrakı dövrdə Ermənistanın öz öhdəliklərini yerinə yetirmədiyini, düzgün mina xəritələrini Azərbaycana vermədiyini söyləyib. Eyni zamanda qeyd edib ki, qayıdış və dirçəliş prosesində əhalinin təhlükəsizliyini təmin etmək və bu mərhələdə gənclərin rolunu artırmaq əsas hədəflərdəndir.

“Aydınlar Ocağı”nın üzvü Turanə Orucova tələbələrin öz dostları və qrup yoldaşları arasında, sosial şəbəkələrdə mina təhlükəsizliyi ilə bağlı təbliğat işi aparacağına əminliyini ifadə edib.

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yüksək nəticələrlə ali məktəblərə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında oktyabrın 3-də Sərəncam imzalayıb. Sərəncama əsasən, bu il universitetlərə ən yüksək balla qəbul olmuş 102 nəfər Prezident təqaüdünə layiq görülüb. Onlardan 23-ü Azərbaycan Tibb Universitetinin tələbələridir.**

# Şərəfli peşənin layiqli davamçıları

## Prezident təqaüdçülərimiz uzun və ağır yolun sonundakı uğura inanırlar



**Sənan İbrahimli** ATU-ya ən yüksək – 694.1 balla daxil olub. 2005-ci ildə Bakıda anadan olmuş Sənan Ə.Dadaşov adına tam orta məktəbi bitirib. Dediyinə görə, həkim peşəsinə maraq onda kiçik yaşlarından oyanıb: “Bu peşəni sevməyimə həm də bacılarım Rəksanə və Zəmanə İbrahimovaların həkim olmaları səbəb olub. Onlarla bir mühitdə yaşamaq, söhbətlərini dinləmək məndə həkimlik peşəsinə həvəs və marağı on qat artırıb. İstəyirəm, gələcəkdə ürək cərrahı olum, insanların ürəyindəki problemləri aradan qaldırım. Əgər bunu bacarsam, özümü dünyanın ən xoşbəxt insanı hesab edərəm”.



**Esmanur Məmməd** 2004-cü ildə Bakıda ziyalı ailəsində dünyaya göz açıb. Uşaqlıq arzusunun ardınca gedən Esmanur ötən il 569,3 balla ATU-nun Fizioterapiya və tibbi reabilitasiya ixtisasına daxil olub: “Lakin məqsədim bu ixtisas olmadığı üçün universitetdə ərizəmi təsdiqlətmədim və yenidən hazırlaşmaq qərarı verdim. Bu il təkrar qəbul imtahanında iştirak etdim və 678,3 bal topladım. Müalicə-profilaktika fakültəsində ingilis dilində təhsil alacağam. Nəticələrim üreyimcədir”.

Esmanurun dayısı Bayram Nuriyev həkimdir. Onun bildirdiyinə görə, həkimlik peşəsini seçməkdə dayısının da az rolu olmayıb: “Uşaqlıqdan həm dayımı, həm də onun həkimlik peşəsini çox sevmişəm. İkinci səbəb isə, bir dəfə evə gələndə televizorda hansısa xəstəlikdən əziyyət çəkən uşağa müalicəsi üçün pul toplanması xəbərini eşitməyim oldu. Ailəsi lazım olunan məbləğin yığılması üçün xalqa müraciət edirdi. Onların baxışlarında bir çarəsizlik sezdim. Bu mənə çox pis təsir etdi. Fikirləşdim ki, kimsə yataq xəstəsi olanda çarəsiz şəkildə bunu izləməkdənsə, həkim olub əlimdən gələni etsəm yaxşıdır”.

2005-ci ildə Saatlıda doğulmuş **Aytən Namazlı** 677.1 balla Azərbaycan Tibb Universitetinə qəbul olunub: “Bu uğuru qazanmağımda valideynlərimin maddi və mənəvi dəstəyi çox olub. Həmçinin də müəllimlərimin. Hər birinə sonsuz təşəkkürümü bildirirəm. Əlavə olaraq qeyd etmək istərdim ki, əsas məsələ çox çalışmaq deyil, düzgün çalışmaq, zamanı düzgün bölə bilməkdir. Hazırda məqsədim yaxşı həkim olmaqdır. Xüsusilə də yaxşı cərrah olmaq istəyirəm. Bilirəm, hələ yolum uzun və çətindir. Amma inanıram ki, yaxşı çalışsam, məqsədimə nail olacağam”.



**Əliəkbər Əkbərbəyov** bu il Həbib bəy Mahmudbəyov adına 2 saylı Texniki-Humanitar Liseyi bitirəndən sonra ATU-nun I Müalicə-profilaktika fakültəsinə daxil olub. Ailə üzvləri həkimdir: “Onların bu sahədə nailiyyətlərini görürdüm. Nəticədə, məndə də meyl yarandı. Həkim olmağı öz istəyimlə seçmişəm. Bu şərəfli və humanist peşəyə dərindən yiyələnib xalqıma xidmət etmək niyyətindəyəm”.



**Rəfiqə Hacılı** isə 675,5 balla Stomatologiya fakültəsinin tələbəsi adını qazanıb. Deyir ki, əvvəllər ayrı peşənin sahibi olmaq istəyib, sonra fikrini dəyişib: “Riyaziyyatı çox sevdiyim üçün əvvəl riyaziyyat müəllimi olmaq istədim. Amma müəllim və yaxınlarımın məsləhəti ilə həkimlik peşəsi haqqında düşündüm. Qərara gəldim ki, stomatoloq olum. Hesab edirəm ki, stomatologiyanın müsbət tərəfləri çoxdur və mən bu sahədə daha çox uğur qazanacağam”.



**Qabil ABDULLAYEV**

**Şəkərli diabet ən geniş yayılmış endokrin xəstəlikdir. Statistikaya görə, 20-80 yaş arasındakı dünya əhalisinin hər 10-cu şəxsində şəkərli diabet var. Bu barədə “Təbib” qəzetinə açıqlama verən ATU-nun II Daxili xəstəliklər kafedrasının assistenti, endokrinoloq Könül İsmayılova bildirib ki, əslində qanda şəkərin yüksək olması xəstəyə çox əziyyət vermir:**

# Şəkərli diabet zamanı qida rasionunu diqqətdə saxlamaq vacibdir

## Həkim-endokrinoloq: “Bu xəstəliyin hədəf orqanları beyin, ürək, gözlər, böyrəklər, sinirlər və aşağı ətraflardır”

“Xəstəyə əziyyət verən şəkərli diabet zamanı əmələ gələn xroniki ağırlaşmalardır. Məsələ burasındadır ki, ilk dəfə həkimə müraciət edən xəstələrin əksəriyyətində artıq bu ağırlaşmalar müşahidə olunur. Bunlara daha çox diabetik angiopatiya dediyimiz damar ağırlaşmaları aiddir. Şəkərli diabet bütün orqanlara öz möhürünü vuran bir xəstəlik olsa da, əsas hədəf orqanları beyin, ürək, gözlər, böyrəklər, sinirlər və aşağı ətraflardır”.

Xəstəliyin profilaktikasında hər kəs üçün sağlam həyat tərzinin tövsiyə olunduğunu söyləyən həkim-endokrinoloq, şəkərli diabet zamanı qida rasionunu diqqətdə saxlamağın vacibliyini də vurğulayıb: “Şirniyyatı, xüsusən də karamelləri öz menyumuzdan çıxarmalıyıq. Çörək və un məmulatlarını tamamilə azaltmalıyıq. Çörəkdən səhər, günorta və axşam yeməklərində hər dəfə iki balaca dilim olmaqla istifadə edə bilərik. Meyvə ilə qidalanmanı da minimuma endirməli və günün birinci yarısında bitirməliyik. Tərəvəzlərdən isə daha bol istifadə etməliyik. Eyni zamanda fiziki aktivliyi, açıq havada yürüşü artırmaq, zərərli adətlərdən, xüsusən də siqaret çəkməkdən uzaq durmaq, artıq çəkiyə yol verməmək lazımdır”.



G.İsmayılova bütün yanaşı xəstəliklərin, o cümlədən ürəyin işemik xəstəliyi, böyrəklərin, ağciyərin xroniki xəstəlikləri və arterial hipertoniyanın şəkərli diabetin gedişinə təsirindən də danışıb. Həmçinin şəkərli diabetin bu xəstəliklərin gedişini ağırlaşdırdığını diqqətə çatdırıb. Onun sözlərinə görə, qanda həm şəkər göstəricilərini, həm də digər göstəriciləri, məsələn, arterial təzyiqi normada saxlamaq lazımdır ki, bu xəstəliklər bir-birini ağırlaşdırmasın: “Əgər yanaşı xəstəliklərin özləri ağır mərhələdədirsə, onda şəkərin miqdarından asılı olmayaraq, şəkərli diabet xəstəsini ancaq insulinlə müalicə etmək şərtdir”.

Şəkərli diabetin ilkin əlamətlərinin müxtəlif olduğunu deyən müsahibimiz qeyd edib ki, tez-tez acmaq, yanğı hissi, tez yorulma, çoxlu maye qəbulu və maye ifrazı (xüsusilə də gecələr), bədəndə qaşınma, görmə zamanı görüntünün bulanması, eləcə də səbəbsiz arıqlama halları şəkərli diabetə xas əlamətlərdir. G.İsmayılova onu da bildirib ki, irsən şəkərli diabeti, eləcə də artıq çəkisi olanlar, digər xəstəliklərə görə qlükokortikoidlər qəbul edən xəstələr bu əlamətləri hiss etmədikdə də mütəmadi olaraq şəkərli diabetə görə müayinədən keçməlidir: “Yadda saxlamalıyıq ki, şəkərli diabetin əlamətləri nəzərə çarpmaya da bilər. Ona görə də diaqnoz qoyulana qədər biz çox vaxt itirmiş oluruq. Evdə özünə nəzarət üçün istifadə olunan şəkərölçən cihazların, yəni qlükometrlərin xətalı məlumatlar verməsi də istisna deyil. Şəkər acqarına, 10 saat aclıqdan sonra, şübhəli nəticələrdə isə ən azı 2 dəfə müxtəlif günlərdə ölçülməlidir. Nəticə əldə edə bilməsək, gizli şəkəri aşkarlamaq üçün 3 aylıq şəkər ölçüsünü göstərən qlükohemoqlobin adlanan analizin aparılması zəruridir. Yuxarıdakı əlamətləri hiss edən pasiyent həkimə qədərki mərhələdə artıq öz qidasından şəkərli məhsulları mütləq çıxarmalıdır”.

Xatırladaq ki, 2006-cı ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilən qətnaməyə əsasən, 2007-ci ildən etibarən hər il noyabrın 14-ü Ümumdünya Diabet Günü kimi qeyd olunur.

# Teatra növbəti səfər təşkil edilib



**Universitetimizin Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) tələbələrin asudə vaxtının səmərəli təşkili məqsədilə fəaliyyətini davam etdirir. Bu fəaliyyət çərçivəsində noyabr ayı ərzində 250-yə yaxın tələbəyə teatra giriş üçün pulsuz bilet təqdim olunub.**

Tələbələr Dövlət Akademik Musiqili Teatrında nümayiş etdirilən "999-cu gecə" tamaşasını maraqla izləyiblər. Tamaşanı tələbələrlə yanaşı, ATU THİK-in sədri Qoşqar İsmayılov, komitənin üzvləri və universitetin müəllimləri də seyr edib.

Tələbələrin teatr sənətinə marağını yüksək qiymətləndirən Q.İsmayılov yaradılan bu imkana görə komitənin nəzdindəki teatr klubunun üzvləri və fəal tələbələrə təşəkkürünü bildirib.

Qeyd edək ki, ATU THİK tələbələrin asudə vaxtlarını səmərəli keçirmələri üçün "Teatr görüşləri" layihəsini davam etdirməklə yanaşı, digər klub və layihə planlarını aybaay təkmilləşdirir.

# Vaxtında aparılan müalicə bir çox problemlərdən çıxış yoludur

**2009-cu ildə Yeni Doğulmuş Uşaqlara Nəzarət üzrə Avropa Fondunun irəli sürdüyü təşəbbüsə əsasən, Beynəlxalq Vaxtından Əvvəl Doğulan Uşaqlar Günü təsis edilib və noyabrın 17-də qeyd edilir. Həmin vaxtdan etibarən dünyada aparılan statistikaya görə, hər il planetdə təxminən 15 milyon uşaq vaxtından qabaq doğulur.**



Bu barədə qəzetimizə danışan ATU-nun Tədris Cərrahiyyə Klinikası I Mamalıq-ginekologiya kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Natəvan Axundova söyləyib ki, vaxtından əvvəl doğuşlar hamiləliyin 22-ci həftəsindən 37-ci həftəsinə qədər baş verir: "Vaxtından əvvəl doğuşların tezliyi inkişaf etmiş ölkələrdə 6-12% arasında dəyişir. İnkişaf etməkdə olan ölkələrdə bu rəqəm daha yüksəkdir. Vaxtından əvvəl doğuşların təxminən 40%-i hamiləliyin 34-cü həftəsinə qədər, 20%-i isə 32-ci həftəsinə qədər baş verir. Bir çox mamalıq ağırlaşmaları, somatik və anatomik pozğunluqlar vaxtından əvvəl doğuşların meydana çıxmasına səbəb ola bilər".

Həkim rastlaşdığı maraqlı bir hadisə ilə bağlı da məlumat verib. Onun sözlərinə görə, 18 yaşlı qız ikincili cinsi əlamətlərin - süd vəziləri, qasıq və qoltuqaltı tüklənmənin, eləcə də menstruasiyanın olmaması şikayəti ilə müraciət edibmiş: "Qızlarda 16 yaşdan menstruasiya başlamayıbsa və ikincili cinsi əlamətlər yoxdursa, bu, cinsi inkişafın ləngiməsi kimi dəyərləndirilməli və səbəbini aşkar etmək üçün müayinələr aparılmalıdır. Pasiyentdə qanın formalı elementlərinin, eləcə də hormonal analizlərin təhlili, ultrasonoqrafiya, başın yan proyeksiyada və əllərin mil-bilək oynağı ilə rentgenoqrafiyası, D vitamininin təyini və bir çox müayinələr aparıldı. Nəticədə ağır dəmir defisitli anemiya, qonadotrop və estrogen hormonların azalması (hipoqonadotrop hipoqonadizm), D vitamini çatışmazlığı aşkar edildi və müalicəyə başlanıldı. Artıq müalicənin üçüncü ayında ikincili cinsi əlamətlər yarandı, genital orqanların ultrasəs müayinəsində ölçülərin böyüməsi aşkarlandı. Müalicənin altıncı ayında menstrual tsikl yarandı. 20 yaşında ailə həyatı quran həmin pasiyent hamilə qalmadığı üçün yenidən bizə müraciət etmişdi. Sonsuzluğun səbəbi araşdırıldı, kişi amili, boru-peritoneal amillər istisna olundu, qonadotropinlərlə ovulyasiya indunsiya edildi. Nəticədə pasiyent hamilə qaldı və 36-cı həftədə təbii yolla uşaq dünyaya gətirdi".

N.Axundova nəzərə çatdırıb ki, cinsi inkişafın ləngiməsinə qarşı vaxtında aparılan müayinə və müalicə reproduktiv və menstrual funksiyanın bərpasına, sonda sağlam övladın dünyaya gəlməsinə, bir ailənin sonsuz sevincinə səbəb olur.

# Tələbələrimiz karate çempionatında uğurlu çıxış edib

**Azərbaycan Tibb Universitetinin tələbələri respublika üzrə karate çempionatında uğurla iştirak edərək yüksək nəticələr əldə ediblər. Universitetin üç tələbəsi peşəkar idmançılarla bir sırada yarışaraq, müxtəlif medallara layiq görülüb.**



ATU-nun idman kompleksinin müdiri Qələndər Aslanovun sözlərinə görə, artıq bir neçə ildir ki, universitetdə karate bölməsi fəaliyyət göstərir. Tələbələr peşəkar səviyyədə karate ilə məşğul olub kəmər dərəcələrinə sahiblənirlər. İndiyədək ATU təmsilçiləri Bakı və respublika üzrə çempionatlarda dəfələrlə qalib olublar.

Üç aylıq gərgin məşqlərdən sonra çempionata qatılan üç tələbəmizin ikisi finala vəsiqə qazanıb. Nəticədə, Stomatologiya fakültəsinin 5-ci kurs tələbəsi Nəstərən Qərari və Müalicə profilaktika fakültəsinin 2-ci kurs tələbəsi Toğrul Abdullayev gümüş medal əldə ediblər. Hərbi tibb fakültəsinin 3-cü kurs tələbəsi İqbal Babazadə isə yarımfinalda məğlub olaraq 3-cü yeri tutub.

Onu da qeyd edək ki, Stomatologiya fakültəsinin 5-ci kurs tələbəsi Samir Hüseynov bu yarışlarda hakim qismində iştirak edib. Bundan əlavə, bir qrup tələbəmiz həkim briqadası olaraq yarışlar zamanı zədələnənlərə yardım göstərib.

Toğrul Abdullayev əvvəlcə həvəskar kimi karate ilə məşğul olub: "Sentyabrdan etibarən respublika yarışlarına hazırlıq üçün ciddi məşqlərə başladıq. Əldə etdiyim nəticə onu göstərir ki, əziyyətimiz hədər getmədi. Növbəti illərdə daha yüksək nəticə əldə edəcəyimə inanıram".

Nəstərən Qərari 2017-ci ildən karate ilə məşğul olur. Əvvəlcə yalnız müdafiə məqsədilə idmanla məşğul olsa da, sonradan peşəkar şəkildə məşqləri davam etdirib. 2019-cu ildə respublika yarışlarında 1-ci yerə layiq görülüb.

İqbal Babazadə təxminən bir il əvvəl karate kurslarına qatılıb. Kəmər dərəcəsi aldıqdan sonra həvəslə respublika çempionatına hazırlaşıb və uğurlu nəticə əldə edib.

Yarışda hakimlik edən Samir Hüseynov bu sahədə artıq kifayət qədər təcrübəlidir. İndiyədək beş yarışa hakim kimi çıxan ATU tələbəsi universiteti və Kyokuşin Karate təşkilatını layiqincə təmsil etdiyinə görə məmnundur.

# Əməkdaşımız idman yarışlarında yüksək nəticələr göstərib

**Azərbaycan Milli Xalq İdman Oyunlarının "Şuşa ili" adı altında XXX Respublika Spartakiadası keçirilib. Spartakiadada milli güləş növü üzrə Azərbaycan Tibb Universitetinin əməkdaşı, mühafizəçi Mahir Əliyev də iştirak edib.**

M.Əliyev 150-ə yaxın idmançının iştirak etdiyi gərgin mübarizədə bütün rəqiblərinə qalib gələrək ən yüksək nəticə göstərib. Belə ki, o, 125 kq çəkidə I yerə çıxıb və Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Konfederasiyasının müvafiq diplomuna layiq görülüb.

Bundan başqa, əməkdaşımız dəşqaldırma və gücsınama yarışlarında 90+ çəki dərəcəsində II yer tutub.

İdman ustası M.Əliyev bu günlərdə sərbəst güləş üzrə böyüklər arasında keçirilən Bakı şəhər çempionatında da iştirak edib. 133 idmançı arasında M.Əliyev yüksək nəticə göstərərək 2-ci yerə layiq görülüb. O, Gənclər və İdman Nazirliyinin Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən diplom və medala təltif olunub.




## Yeni nəşrlər

# "Normal fiziologiya" dərsliyi və monoqrafiya dərc olunub

**Azərbaycan Tibb Universitetinin Normal fiziologiya kafedrasının professoru Əhməd Kazımovun müəllifliyi ilə 2022-ci ildə bir dərslik və bir monoqrafiya işıq üzü görüb.**




"Normal fiziologiya" dərsliyi əsasən normal fiziologiya fənninin əczaçılıq fakültəsi tələbələrinin proqramına tam uyğun olaraq, praktiki sağlam insanın fizioloji funksiyalarının öyrənilməsinə yönəlib. Kitabda orqanizmin homeostatik səviyyədən davranış səviyyəsinədək olan sosialyönümlü və bütün funksional sistemlərinin yaranmasında iştirak edən orqan və toxumaların fiziologiyası haqqında ətraflı biliklər verilir. Bu da orqanizmdə ilkin dəyişikliklərin düzgün qiymətləndirilməsinə və vaxtında profilaktik tədbirlərin görülməsinə imkan yaradır.

Dərslik Azərbaycan Tibb Universitetinin və digər tibb məktəblərinin tələbələri üçün nəzərdə tutulub. Dərslikdən baza ali tibb təhsili əsasında rezidenturaya hazırlaşan məzunlar, fiziologiya sahəsində çalışan elmi işçilər, həkimlər və tibbi biologiya ixtisası üzrə mütəxəssislər də istifadə edə bilərlər.

"Təbib" nəşriyyatında dərc olunan, 353 səhifədən ibarət dərslik Azərbaycan Respublikasının Səhiyyə və Təhsil nazirlikləri tərəfindən təsdiq edilib və ali tibb məktəbləri tələbələri üçün tövsiyə olunub.

Monoqrafiya isə gənclərin emosional və müxtəlif hüdudi nevrotik vəziyyətlərinin elektroensefaloqrafik, psixofizioloji və vegetativ xüsusiyyətlərinin funksional musiqi ilə reabilitasiyasının tədqiqi kimi aktual bir problemə həsr edilib. Praktiki sağlam və hüdudi vəziyyətlərdə olan gənclərin funksiyaların neyrovisseral inteqrasiyasının yaş-cinsiyyət qanunauyğunluqlarının aşkarlanması, həmçinin neyro-psixiki-vegetativ əlaqələrinin modulyasiya xüsusiyyətlərinin tibbi rezonanslı terapevtik musiqi ilə öyrənilməsi xüsusi əhəmiyyət daşıyır.

Monoqrafiya klinik praktikaya daxil edilməklə və sağlamlığın diaqnostika və reabilitasiya işlərində, eyni zamanda nəzəri və praktik müddəalar tibb və biologiya yönümlü təhsil müəssisələrində tədris prosesində, MSS-in öyrənilməsinə aid metodik göstərişlərin, tədris vəsaitlərinin, monoqrafiyaların hazırlanması zamanı əlavə material qismində istifadə edilə bilər.

# "Pediatrik semiologiya" dərsliyi işıq üzü görüb

**Ailə təbabəti kafedrasının müdiri, əməkdar elm xadimi, professor İbrahim İsayev və dosent Rəna Məmmədova tərəfindən hazırlanmış "Pediatrik semiologiya" adlı dərslik işıq üzü görüb.**




Dərslikdə təməl pediatriyanın əsas bölmələri - deontologiya məsələləri, uşaq yaşının dövrlərinin səciyyəsi, uşaqlarda fiziki inkişafın yaş xüsusiyyətləri, sağlam uşaqların qidalanma prinsipləri, uşaqlarda üzv və sistemlərin anatom-fizioloji yaş xüsusiyyətləri, onların müayinə üsulları, əsas zədələnmə simptom və sindromları ətraflı şəkildə əks olunub.

Dərslik tibb təhsili verən aparıcı universitetlərin tədris proqramları əsasında tərtib edilib, ali məktəb tələbələri və rezident həkimlər üçün nəzərdə tutulub.

# "Tibbi biokimya" dərsliyi çapdan çıxıb

**Tibbi biokimya kafedrasının əməkdaşları professor Gülnarə Əzizova, dosent Şəymən Həsənova, dosent Akif Qarayev, assistent Nərmin Bayramovanın müəllifliyi ilə yeni dərslik çapdan çıxıb. Kitab tələbələrlə yanaşı, tibb sahəsində çalışan hər kəs üçün əhəmiyyətli vəsait kimi nəzərdə tutulub.**




Kafedranın müdiri G.Əzizovanın sözlərinə görə, bu dərslik yeni ixtisaslar üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulub: "Artıq 3 ildir ki, İctimai səhiyyə fakültəsinin nəzdində fizioterapist, reabilitoloq və ali tibb bacısı ixtisasları açılıb. Həm bu yeni ixtisaslar, həm də Hərbi tibb fakültəsinin nəzdindəki hərbi feldşer ixtisası üçün biokimya fənninə ayrılan saatlar Müalicə-profilaktika fakültəsi ilə müqayisədə azdır. Hazırda kafedrada işlədilən "İnsan biokimyası əsasları" dərsliyi isə mövcud proqrama uyğun deyil". Bu səbəbdən adıçəkilən ixtisaslar üçün tibbi biokimya üzrə daha sadə bir dərsliyin yaradılmasına qərar verilib.

300 səhifədən ibarət olan, həm statik, həm də dinamik biokimya bölmələrini əhatə edən kitabda xüsusilə yuxarıda qeyd edilən ixtisaslar üçün önəmli olan bölmələrə geniş yer ayrılıb.

# Yüksək səviyyəli pedaqoq, vətənpərvər ziyalı



**Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru, əməkdar müəllim, "Qızıl Qələm" mükafatı laureatı, tibb elmləri doktoru Mübariz Qasım oğlu Allahverdiyevin anadan olmasından 80 il ötür.**

O, 1942-ci il noyabrın 19-da Azərbaycan SSR DQMV-nin Xankəndi rayonunun Xocalı kəndində anadan olub, 1966-cı ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra təyinatını doğma yurduna götürüb. Lakin Vilayət Səhiyyə Şöbəsinin erməni müdiri onu işlə təmin etməkdən imtina edib, böyük çətinliklərdən sonra ermənilərin həkim kimi işləmək istəmədikləri Naxçıvanik – Pir Camal kəndinə göndərilib. Bir ilin tamamında iş yeri məqsədyönlü şəkildə ixtisara salınıb. M.Allahverdiyev Türkmənistana gedərək orada Taşauz (Dış Oğuz) Vilayətinin Köhnə Ürgənc rayonunda sahə xəstəxanasında baş həkim vəzifəsinə təyin edilib. Tezliklə Aşqabada göndərilib və Türkmənistan Dövlət Tibb İnstitutu nəzdində ixtisaslaşma kursu keçərək ümumi cərrah ixtisasına yiyələnib. 1969-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Normal anatomiya kafedrasının müəllimi vəzifəsinə qəbul edilib, kafedrada assistent, baş müəllim, dosent vəzifələrində çalışıb. 1985-ci namizədlik dissertasiyası müdafiə edib. Əldə etdiyi dəyərli elmi nəticələr «Bel-oma kələfi, bud sinirləri» adlı monoqrafiyada əksini tapıb. Elmi-tədqiqat işlərini davam etdirən M.Allahverdiyev 2008-ci ildə akademik V.B. Şadlinskinin məsləhətçiliyi ilə doktorluq dissertasiyası müdafiə edib, 2010-cu ildə kafedranın professoru vəzifəsinə seçilib.

O, 305 elmi və elmi-kütləvi işin, o cümlədən 4 monoqrafiya və 4 biblioqrafik məlumat kitabının, 19 dərslik və dərs vəsaitinin, 2 səmərələşdirici təklifin, ATU-nun yaradılmasının 80 və 90 illik yubileylərinə, eləcə də kafedranın 90 illik yubileyinə həsr edilmiş üç kitabın müəllifi və həmmüəlliflərindəndir.

Professor M.Allahverdiyev Universitetin ictimai həyatında yaxından iştirak edir. 1993-2000-ci illərdə ATU-nun Böyük Elmi Şurasının elmi katibi, 1993-cü ildən 2022-ci ilə qədər ATU-nun Böyük Elmi Şurasının, 2008-ci ildən 2022-ci ilə qədər I MPF Elmi Şurasının üzvü olub. Müxtəlif illərdə o, I MPF və Pediatriya fakültələrinin dekan müavini, İnternatura şöbəsinin müdiri, «anatomiya», «histologiya» və «patoloji anatomiya» üzrə İxtisaslaşdırılmış müdafiə şurasının elmi katibi, İnsan anatomiyası kafedrasının tədris hissə müdiri, Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyətinin katibi, kafedra Tələbə Elmi Cəmiyyətinin sədri, kafedra müdirinin müavini, ictimai əsaslarla ATU-nun Mətbuat xidmətinin rəhbəri, Ali Attestasiya Komissiyasının ATU-nun nəzdində təşkil etdiyi Dissertasiya şuralarının elmi katibi vəzifələrini yerinə yetirib.

İstedadlı alim və müəllim kimi tanınan Mübariz Allahverdiyev hazırda Qarabağ Müharibəsi Veteranları Birliyinin, Azərbaycan Respublikası Jurnalistlər Birliyinin, nəzəri fənlər üzrə Problem Komissiyasının, Azərbaycan Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyətinin, "Nəzəri, Klinik və Eksperimental Morfologiya Jurnalı"nın Redaksiyaşı Şurasının üzvü, rektorun müşaviridir. O, 2007-2022-ci illərdə «Xocalı soyqırımını tanıtma» İctimai Birliyi Ağsaqqallar Şurasının sədri olub.

Professorun ötən illər ərzində bir çox Fəxri fərmanlara, mükafatlara, o cümlədən «Əməkdar müəllim» adına layiq görülməsi onun fəaliyyətinə verilən qiymətin göstəricisidir.

Yüksək səviyyəli pedaqoqluq məharətinə və insani keyfiyyətlərə malik olan Mübariz müəllimi anadan olmasının 80-ci ildönümü münasibətilə təbrik edir, ona möhkəm cansağlığı və gələcək işlərində yeni uğurlar arzulayırıq!

# Ömrünün müdriklik çağını yaşayan alim

**Bu günlərdə Tibbi və bioloji fizika kafedrasının professoru Hüseyn Abıyevin 75 yaşı tamam olub.**



Hüseyn Əzizulla oğlu Abıyev 17 noyabr 1947-ci ildə Saatlı rayonunun Qara Nuru (keçmiş Krasnoselski) kəndində fəhlə-kolxozçu ailəsində doğulub. 1965-ci ildə Əczaçılıq Texnikumuna daxil olub. Texnikumu bitirdikdən sonra 1967-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Əczaçılıq fakültəsinə qəbul olan H.Abıyev, elə birinci kursdan ictimai işlərdə fəal iştirak etdiyi üçün fakültə üzrə həmkarlar təşkilatının sədri vəzifəsinə seçilib. Hələ tələbə ikən "Elm və həyat", "Kənd həyatı" və digər jurnallarda məqalələri çap edilib.

Ali təhsilini başa vurduqdan sonra o, Tibb İnstitutunun Mərkəzi Elmi Tədqiqat laboratoriyasında laborant vəzifəsində çalışıb. 1979-cu ildə isə müsabiqə yolu ilə Fizika-kimya kafedrasında biofizika ixtisası üzrə aspirantura təhsili alıb. "Ultrabənövşəyi şüaların toksikiliyinə qarşı α-tokoferolun antioksidant təsiri" mövzusunda namizədlik dissertasiyanı 1982-ci ildə Daşkənd şəhərində Özbəkistan Milli Elmlər Akademiyasının Biokimya İnstitutunda müdafiə edib.

H.Abıyev 1982-ci ildən Azərbaycan Tibb İnstitutunun Fizika-kimya kafedrasında baş laborant, 1984-cü ildən isə müsabiqə yolu ilə Dərman texnologiyası kafedrasında assistent vəzifəsində işləyib. 1988-ci ildə həmin kafedranın baş müəllimi, 1992-ci ildə Biokimya kafedrasının dosenti vəzifəsinə seçilib. Eyni zamanda Əczaçılıq fakültəsinin həmkarlar təşkilatının sədri, həmkarlar komitəsinin büro üzvü kimi universitetin ictimai həyatında da xüsusi fəallıq göstərib. Tibbi-biologiya fakültəsinin dekan müavini vəzifəsində çalışmaqla bərabər, Əczaçılıq fakültəsinin elmi şurasının üzvü olub. 2001-ci ildən 2012-ci ilə qədər isə Əczaçılıq fakültəsinin dekan müavini və dekanı vəzifəsində çalışıb.

2018-ci ildə Azərbaycan Elmlər Akademiyasında Radiasiya Problemləri İnstitutunda doktorluq dissertasiyasını müdafiə edib. Hal-hazırda Tibbi və bioloji fizika kafedrasında professor vəzifəsində çalışır. Nəsimi rayon Ağsaqqallar Şurasının fəal üzvlərindən biridir.

Bir neçə elmi-metodik göstərişin, 3 dərs vəsaitinin, 2 monoqrafiyanın, 2 elmi patentin, bir müəlliflik şəhadətnaməsinin, həmçinin 100-dən çox elmi məqalənin müəllifi və həmmüəllifidir.

Tibbi və bioloji fizika kafedrasının kollektivi öz həmkarlarının və tələbələrinin böyük sevgisini qazanan, ömrünün müdriklik çağını yaşayan Hüseyn müəllimi yubileyi münasibətilə təbrik edir, ona sağlıqlı uzun ömür, elmi və pedaqoji fəaliyyətində uğurlar arzulayır!

**Bu günlərdə Bakıdakı "Gülüstan" sarayında Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib.**



# Əməkdaşımıza Milli Olimpiya Komitəsinin xüsusi medalı verilib

Tədbirdə dövlət və hökumət rəsmləri, Milli Məclisin deputatları, federasiyaların rəhbərləri, Olimpiya çempionları və titullu idmançılar iştirak ediblər.

Yubiley tədbirinə ATU-nun "Təbib" idman klubunun məşqçi-müəllimi, professor Zakir Məmmədov da dəvət olunub.



İdman ictimaiyyətinin yaxşı tanıdığı Z.Məmmədov 45-dən çox elmi-pedaqoji məqalənin, dərslik və metodiki vəsaitlərin müəllifidir. O, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunun (indiki İdman Akademiyası) məzunu olaraq 1977-1987-ci illərdə "Dinamo" könüllü idman cəmiyyətində məşqçi-müəllim, 1979-1980-ci illərdə Azərbaycanın Yunan-Roma güləş yığma komandasının məşqçi-müəllimi, 1980-1982-ci illərdə SSRİ-nin "Dinamo" idman cəmiyyətinin Yunan-Roma güləş yığma komandasında məşqçi vəzifələrində işləyib. 1983-cü ildən Azərbaycan Tibb Universitetində çalışan professor Zakir Məmmədov respublikanın idman həyatında xüsusi fəallığı ilə seçilib. Onun idman sahəsindəki uğurları ulu öndərimiz Heydər Əliyev və ölkə başçısı İlham Əliyev tərəfindən həmişə yüksək qiymətləndirilib. Həmçinin "Əməkdar bədən tərbiyəsi və idman xadimi", "Əməkdar məşqçi", "Fəxri bədən tərbiyəsi və idman işçisi", "Ali kateqoriyalı müəllim-məşqçi mütəxəssis", "Beynəlxalq dərəcəli idman ustası", Avropa və Dünya Güləş Birliyinin (FİLA) "Beynəlxalq dərəcəli hakimi" adlarına layiq görülüb. Azərbaycan Milli Olimpiya Komitəsinə və Azərbaycan Güləş Federasiyasının Hakimlər Kollegiyasına üzv seçilib. O, FİLA-nın ən yaxşı güləş hakimi adına layiq görünüb, qurumun diplom və mükafatları ilə təltif edilib.

İşlədiyi müddətdə 20-ə yaxın çox "SSRİ idman ustası", 25-dən çox "SSRİ idman ustalığına namizəd" və 200-dən çox müxtəlif dərəcəli güləşçi idmançılar yetişdirib. Tələbələri dünyanın ən böyük arenalarında güləş yarışlarının qalibləri və mükafatçıları olublar. Azərbaycanda və xarici ölkələrdə keçirilən beynəlxalq güləş yarışlarında, dünya və Avropa çempionatlarında dəfələrlə hakimlik edib.

Z.Məmmədov 2006-cı ildə Bakıda keçirilən Hərbçilər arasında güləş üzrə dünya çempionatına hakimlik edib və iki tələbəsi dünya çempionu, bir tələbəsi 2014-çi ildə Avropa, 2015-ci ildə isə dünya kubokunun sahibi olub. Eyni zamanda ali məktəb tələbələri arasında keçirilən güləş yarışlarında Tibb Universitetinə 300-dən çox medal qazandıran tələbələr hazırlayıb.

Yubiley tədbirində idman sahəsindəki xidmətlərinə görə ATU-nun məşqçi-müəllimi, professor Zakir Məmmədov Milli Olimpiya Komitəsinin xüsusi medalı ilə mükafatlandırılıb.

## Allah rəhmət eləsin!

II Müalicə-profilaktika fakültəsi dekanlığının kollektivi, Tibb və sağlamlıq elmlərinin təhsili, Tibbi mikrobiologiya və immunologiya, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı, Qidalanma və tibbi ekologiya, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedralarının əməkdaşları Tibb və sağlamlıq elmlərinin təhsili kafedrasının müdiri, dosent Samir Cavadova atası

**Sabir Cavadovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın dosenti Sədaqət Rüstəmovaya və bacısı İlahə xanıma dayıları

**Eldar Ataşovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM-in kollektivi Elektromikroskopiya şöbəsinin baş elmi işçisi Fuad Rzayevə nənəsi

**Həmiyyəxanım Rzayevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Anesteziologiya və reanimatologiya kafedrasının əməkdaşları kafedranın dosenti Əliyar Sultanova qayınanası

**Sədaqət xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Anesteziologiya və reanimatologiya kafedrasının kollektivi kafedranın əməkdaşı Famil Mustafayevə atası

**Mustafa Mustafayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Şahmar Məmmədova qayınanası

**Kövsər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

II Uşaq xəstəlikləri kafedrasının kollektivi kafedranın assistenti Nurəngiz Hacıyevaya qayınanası

**Nəzifə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## Etibarsız sayılır

Məmmədli İsmayıl Mədəd oğlu (qrup 317A2); Afzaal Shaheer (qrup 117İ4); Hamed Ranjbarpaydar Asgar oğlu (qrup 118İ2a) Əmirov Elgün Eldəniz oğlunun (qrup 222A8b) tələbə bileti itdiyi üçün etibarsız sayılır.


Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Azərbaycan Nəşriyyatı" MMC-də çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 3555
Sayı 2250